TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri
_________ E. M. Ağayev
"25" İyun 2015-ci il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**İNQALİPT-N** inhalyasiya üçün sprey
INGALIPT-N

***Tərkibi***

*Təsiredici maddə*: 1 balonda 0,75q həll olan streptosid, 0,75 q natrium norsulfazol vardır.

*Köməkçi maddələr:* timol, evkalipt yağı, nanə yağı, qliserin, 96%-li etanol, saxaroza, təmizlənmiş su.

**Təsviri**

Açıq-sarı rəngdən tünd sarı rəngə qədər, spesifik iyi olan şəffaf maye.

**Farmakoterapevtik qrupu**

Respirator sisteminə təsir göstərən vasitələr. Boğaz xəstəliklərində istifadə edilən preparatlar. Antiseptiklər. Müxtəlif antiseptiklər.

**ATC kodu:** R02A A20

**Farmakoloji xüsusiyyətləri**

***Farmakodinamikası***

İnqalipt-N antibakterial və iltihabəleyhinə, həmçinin soyuducu və yayındırıcı təsir göstərir. Göstərilən farmakoloji xüsusiyyətlərin birləşməsi ağız boşluğunun selikli qişasının və yuxarı tənəffüs yollarının iltihabi xəstəliklərində kompleks patogene-tik müalicəni təmin edir. İnqalipt-N orqanizmə ulserogen və ümumtoksik təsir göstərmir.

***Farmakokinetikası***

İnqalipt-N yerli inhalyasion istifadə etmək üçün nəzərdə tutulur və onun müalicəvi konsentrasiyaları əsasən iltihab ocağında yaranır. Sulfanilamidlər sistem qan dövranına qismən sorulur (həllolan streptosid və natrium norsulfazol) və həllolan streptosid 12-14%, natrium norsulfazol – 55% qan zülalları ilə birləşir. Biotransformasiya prosesində sulfanilamidlərin asetillə olunmuş formaları əmələ gəlir, hansılar bu şəkildə böyrəklərlə xaric olunur. Həllolan streptosidin yarımxaricolma dövrü 10 saat təşkil edir, natrium norsulfazolun isə - 1,2 saat.

**İstifadəsinə göstərişlər**

LORorqanların və ağız boşluğunun selikli qişasının infeksion-iltihabi xəstəliklərinin yerli müalicəsi (tonzillit, faringit, laringit, aftoz və xoralı stomatitlər).

**Əks göstərişlər**

Preparatın komponentlərinə qarşı yüksək həssaslıq, sulfanilamidlərə qarşı anamnezdə qeyd olunmuş ağır toksiko-allergik reaksiyalar.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**
*Əgər Siz digər dərman vasitələrini qəbul edirsinizsə, preparatın sonrakı istifadəsinin mümkünlüyü barədə həkimlə mütləq məsləhətləşin!*
Paraaminobenzoy turşusunun törəmələri ilə birlikdə (novokain, anestezin, dikain) istifadə etdikdə preparatın mikrob əleyhinə təsirinin zəifləməsi mümkündür.

**Xüsusi göstərişlər**
*Allergiyaya meyilli olan şəxslər preparatı istifadə etməyə başlamazdan əvvəl həkimlə məsləhətləşməlidirlər!*
*Həkimin məsləhəti olmadan preparatı göstərilən müddətdən artıq istifadə etmək olmaz.*
*Bu qrup preparatların qəbuluna qarşı əvvələr qeyd olunmuş reaksiya barədə həkiminizə mütləq məlumat verin.*
Preparatın gözə düşməsi yolverilməzdir.
İlk istifadədən əvvəl taxmanın üzərinə dispersə olunmuş şırnağın əmələ gəlməsinədək 7 dəfədən çox olmamaqla basmaq lazımdır. Şırnaq yaranmadıqda bunu təkrar etmək mümkündür.
Preparatın istifadəsindən öncə ağız boşluğunu qaynadılmış ılıq su ilə yaxalamaq məsləhət görülür. Steril tampon vasitəsilə ağız boşluğunun zədələnmiş sahələrindən (eroziya, xora) nekrotik ərp xaric olunmalıdır. Preparatı ağız boşluğunda istifadə etdikdən sonra 15-30 dəqiqə ərzində qida qəbulundan çəkinmək lazımdır.
Preparatı istifadə etdikdən sonra boğazlı tozlandırıcını ştok üzərindən cıxarıb, onu ılıq su ilə yumaq lazımdır. Balonun çirklənməsinin qarşısını almaq üçün onu qoruyucu qapaqla bağlamaq lazımdır.
Preparatı uşaqlarda istifadə edərkən nəzərə almaq lazımdır ki, 1-2 saniya ərzində püskürdülmüş preparatın bir dozasında 0,0076-0,0152 ml etanol (96%) vardır, bu isə uşaqlar üçün birdəfəlik dozada 2-5 yaşlı uşaqlar üçün (bədən kütləsi 12-21kq) – 0,0004-0,0013ml/kq; 6-12 yaşlı uşaqlar üçün (bədən kütləsi 21-38 kq) – 0,0002-0,0007 ml/kq təşkil edir.
Bu dərman vasitəsinin tərkibində saxaroza vardırə Ona görə də fruktozaya qarşı nadir irsi dözümsüzlüyü, qlükoza-qalaktoza malabsorbsiya sı və ya saxaraza-izomaltaza çatışmazlığı olan xəstələr bu preparatı istifadə etməməlidir.

**Hamiləlik və laktasiya dövründə istifadəsi**
Hamiləlik və laktasiya dövründə preparatın istifadəsi fayda/risk nisbəti qiymət-ləndirildikdən sonra və preparatın doza rejiminə ciddi riayət etməklə həkimin nəzarəti altında mümkündür.

**Nəqliyyat vasitələrini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri**
Preparat nəqliyyat vasitəslərini və digər mexanizmləri idarəetmə qabiliyyətinə təsir etmir, lakin nəqliyyat vasitəsinin sürücüləri nəzərə almalıdır ki, alkoqolu müayinə edən testlərin nəticələri yanlış ola bilər.

**İstifadə qaydası və dozası**
Böyüklərə və uşaqlara 3 yaşdan başlayaraq burun-udlaq və ağız boşluğunun selikli qişalarının üzərinə püskürtmə yolu ilə yerli təyin edilir.
Böyüklər üçün püskürtmə sutkada 3-4 dəfə həyata kerçirilir.
Uşaqlara 3 yaşdan başlayaraq həkimin digər göstərişləri olmadıqda sutkada 1-2 dəfə püskürtmə edilir.
Preparatın istifadəsinin davametmə müddəti xəstəliyin gedişindən asılı olub, adətən 3-10 sutka təşkil edir.
*İstifadənin tezliyi və davametmə müddəti həkim tərəfindən fərdi təyin edilir və xəstəliyin ağırlığından asılıdır!*

*Balonun istifadə qaydası*
1. Qoruyucu qapaqcığı balonun üzərindən çıxarın.

2. Balonun klapan ştok üzərinə göstərilən boğazlı qarmağı taxın (püskürdücü), lakin əvvəlcə onun təmizliyini yoxlayın.
3. Balonu 1 dəq. ərzində çalxalayın və dispersə olunmuş şırnağın yaranmasına qədər taxma üzərinə 7 dəfədən artıq olmamaqla basın. Şırnaq əmələ gəlmədikdə proseduru yenidən təkrar etmək mümkündür.
4. Püskürdücünün boş ucunu ağız boşluğuna yeridin və balonu şaquli vəziyyətdə saxlayıb, püskürdücünün başcığının üzərinə basın. İnhalyasiyanın 1 seansı ərzində İnqalipt-N preparatının 2-3 püskürdülməsi baş verir.
5. Püskürtmə bitdikdən sonra balonun püskürdücüsünü klapan ştok üzərindən çıxardıb, balonu qoruyucu qapaqla bağlamaq lazımdır (çirklənməmək üçün).
6. Preparatı istifadə etdikdən sonra püskürdücünü ılıq su ilə yuyub və isti yerdə qurudub təmiz saxlamaq lazımdır.

***Uşaqlar.***
Preparat 3 yaşa qədər uşaqlarda istifadə olunmur.
Evkalipt və nanə yağlarının efirlərinin olması ilə əlaqədar reflektor bronxospaz-mın əmələ gəlməsi ehtimalı ilə bağlı uşaqlarda 3 yaşdan başlayaraq ehtiyatla istifadə edilir.Uşaqların müalicəsi həkimin nəzarəti altında keçirilməlidir.

**Doza həddinin aşılması**
Doza həddinin aşılması halları qeyd olunmayıb. Preparatın əlavə effektlərinin güclənməsi mümkündür.
*Müalicəsi*: preparatın ləğv olunması, ağız boşluğunun ılıq qaynadılmış su ilə yuyulması. Simptomatik müalicə təyin edilir.

**Əlavə təsirləri**
Allergik reaksiyalar, o cümlədən dəri üzərində səpgilər, qaşınma, təmas yerində ödem, angionevrotik ödem, bronxospazm, övrə.
Preparat adətən yaxşı mənimsənilir, lakin tək-tək hallarda aşağıdakılar mümkün-dür:
*İmmun sistemdə*: allergik reaksiyalar, o cümlədən angionevrotik ödem, bronxospazm.
*Dəridə*: səpgilər, qaşınma, övrə, təmas yerində ödem.
*Həzm sistemində*: ürəkbulanma, qusma, yerli effektlər (ağızda qıcqırma, yandırma hissi və ya göynəmə).
*Digər*: ümumi zəiflik, tənəffüsün çətinləşməsi.
*Arzuolunmaz əlamətlərdən hər hansı biri əmələ gəldikdə və ya qeyri-adi reaksiyalar müşahidə olunduqda preparatın gələcək istifadəsi üzrə həkimlə məsləhətləşin.*

**Buraxılış forması**
30 q preparat, alüminium püskürdücü və qoruyucu qapaqlı balonda. 1 balon içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.

**Saxlanma şəraiti**
25° C-dən yüksək olmayan temperaturda, oddan uzaq, uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**
2 il.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Aptekdən buraxılma şərti**
Reseptsiz buraxılır.

**İstehsalçı**
MMC "Mikrofarm"
Ukrayna, 61013, Xarkov şəh., Şevçenko küç., 20.

**İstehsalçının yerləşdiyi yer və fəaliyyət göstərdiyi yerin ünvanı**
MMC "Mikrofarm"
Ukrayna, 61013, Xarkov şəh., Şevçenko küç., 20.